Ömər Faiq Nemanzadə – 150

# Milli ideallara xidmət etmiş ədib





**Dünən Bakı Kitab Mərkəzində görkəmli publisist, maarifçi və ictimai xadim Ömər Faiq Nemanzadənin 150 illiyi ilə bağlı ədəbi-bədii gecə keçirilib.**

Unudulmaz ədibin nəvəsi Fuad Pepinov və nəticəsi Ülviyyə Pepinova Ömər Faiqin həyat və yaradıcılığından, ictimai fəaliyyətindən danışaraq, babalarının xatirəsinə göstərilən ehtiram və qədirbilənliyə görə minnətdarlıqlarını bildiriblər.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar qeyd edib ki, xalqın maariflənməsinə və tərəqqisinə çalışmış Ömər Faiq nadir demokrat ziyalı idi: "O, bütün müsəlman Şərqində məşhur olan "Molla Nəsrəddin" satirik jurnalının həmtəsisçisi olmaqla milli jurnalistikanın formalaşmasında və inkişafında mühüm xidmətlər göstərib. Nemanzadə Molla Nəsrəddin ədəbi məktəbinin yaradıcılarından biri, Cəlil Məmmədquluzadənin əməl dostu, milli mətbuatın və ictimai fikrin inkişafında böyük xidmətləri olan mütəfəkkirdir. Onun yaradıcılığı XX əsr Azərbaycan publisistikasının qiymətli səhifələrindən biridir".



ADA Universitetinin rektoru Hafiz Paşayev Nemanzadənin ictimai-estetik fəaliyyəti, onun XX əsr ədəbi-ictimai düşüncəsindəki yeri barədə danışaraq vurğulayıb ki, Cəlil Məmmədquluzadə ilə Ömər Faiq Nemanzadənin dostluğu "Şərqi-rus" qəzetindən başlayıb və satirik jurnalla mollanəsrəddinçilərin əlaqələndirilməsində Ömər Faiqin böyük rolu olub: "O, Mirzə Cəlillə çiyin-çiyinə çalışıb və sona qədər milli ideala sadiq qalıb, Azərbaycanda elmi-analitik publisistikanı yaradanlardan biri olub".

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlı görkəmli ədibin ictimai-siyasi baxışlarından, maarifçiık və publisistik fəaliyyətindən söhbət açıblar. Onun doğma xalqının mədəni dirçəlişi, istiqlalı, xoşbəxt gələcəyi naminə bilik və bacarığını əsirgəmədən mübarizə apardığını vurğulayıblar.

Çıxış edənlər azərbaycançılıq məfkurəsinin Ömər Faiq Nemanzadənin publisistik irsində aparıcı yer tutduğunu bildiriblər.

Gecədə ədibin xalçaçı rəssam Afaq Kərimovanın batika üslubunda yaratdığı portretinin təqdimatı da olub, əsərlərindən parçalar səsləndirilib. Milli musiqi nümunələrinin ifası gecəyə təntənə və xoş əhval gətirib.

***"Xalq qəzeti"***